# UnterMix® *1580 AL*




## PÜSKÜRTMƏ ÜSULU İLƏ VURULAN BETONUN QURUMASINI SÜRƏTLƏNDİRƏN QURU QARIŞIQ

### Məhsul haqqında
UnterMix 1580 Al püskürtmə betonun qurumasını sürətləndirən məhsuldur.

### İstifadə sahələri
Bu məhsuldan:
- tunellərdə;
- mədənlərdə;
- qaya səthlərin müvəqqəti və uzunmüddətli bərkidilməsində;
- erkən və son yüksək müqavimət almaq üçün istənilən püskürtmə beton növlərinin tətbiqində;
- təmir işlərində istifadə olunur.

### Üstünlükləri
- tez bərkiməsi sayəsində 10-15 sm-lik təbəqələrin bir dəfəyə püskürdülməsinə imkan verir;
- xüsusi formulu sayəsində ilkin yüksək müqavimət əldə edilir.

### İstifadə qaydaları
***Səthin hazırlanması.*** Səth yapışmağa mane olan hər növ yağ, pas, parafin və digər qalıqlardan yaxşıca təmizlənməli və səthdə heç bir qalıq qalmamalıdır. Yapışma müqavimətinin saxlanılması üçün səth yüksək təzyiqli su ilə təmizlənməli və nəm halda məhsul tətbiq olunmalıdır.

***Sementin seçilməsi.*** Bərkimə müddətinə mənfi təsirin olmaması üçün təzə sementdən istifadə olunmalıdır. Püskürtmə betonun tez bərkiməsi məqsədilə portlantsementdən və ya sulfata davamlı sementdən istifadə olunması tövsiyə olunur.

***Qarışığın hazırlanması.*** İstifadə zamanı bərkiməni sürətləndirmək məqsədilə sementə əvvəlcədən aparılan laboratoriya tədqiqatları ilə müəyyən olunmuş miqdarda UnterMix 1580 Al məhsulu əlavə edin. UnterMix 1580 Al məhsulu birbaşa transmikserdəki qarışığa əlavə edildiyi halda fraksiyalar (sement, kvars qumu və s.) quru deyilsə, sementin hidrotasiyası başlayacaq və transmikserdəki betonda ayrı-ayrı kündələr meydana gələcəkdir. İstifadə zamanı operator tərəfindən təyin olunan optimal su miqdarı bu çatışmazlıqları aradan qaldırır. Suyun az olduğu hallarda püskürmə betonun bərkimə müddəti qısalır, suyun çox olduğu hallarda isə püskürtmə betonun bərkimə müddəti uzanır. Buna görə də quru beton qarışığına hidrotasiyaya bəs edəcək miqdarda su əlavə edilməlidir.

***Tətbiqi.*** Qarışıq rotorlu beton püskürtmə aparatı vasitəsi ilə səthin üzərinə püskürdülməlidir.

### Texniki göstəricilər

| | |
|---|---|
| Rəngi | bej (sarıya çalan açıq-qəhvəyi) |
| Tökmə həcm kütləsi | 0,9-1,0 kq/litr |
| Turşuluq göstəricisi (pH) | ~11,0 |
| Xlorun miqdarı (EN 480-10) | ˂ 0,1% |
| Qablaşdırma | 15 kq-lıq kisələrdə |

### Sərfiyyat
UnterMix 1580 Al məhsulunun sərfiyyatı betonun, havanın və səthin istiliyindən asılıdır. Digər ən vacib amil isə məhsulun istifadə olunan sement ilə uyğunlaşmasıdır. Bunun üçün uyğun sərfiyyatı müəyyən etmək məqsədilə əvvəlcədən sınaqlar aparılmalıdır.
UnterMix 1580 Al quru qarışığı istifadə yerindən, bərkimə müddətindən və davamlılığından asılı olaraq mineral yapışdırıcı maddələrin kütləsinin (sement, vulkan külü, kvars qumu, şlak) 4-8%-i arasında istifadə oluna bilər. Göstərilən sərfiyyatdan kənara çıxmalar olarsa, son möhkəmlik həddi aşağı düşə bilər.

### Saxlama müddəti və qaydası
Açılmamış orijinal qablarda +5$^0$C±40$^0$C temperatur şəraitində, üst-üstə üç cərgə olmaqla 6 ay saxlanıla bilər. Uzun müddətli saxlanıldıqda məhsul üst-üstə qoyulmamalıdır. Açılmış qablar uyğun saxlama şəraitində 1 həftə ərzində istifadə olunmalıdır.

### Xəbərdarlıqlar
- məhsuldan istifadə zamanı işin və işçinin təhlükəsizliyi qaydalarına riayət olunmaqla, müvafiq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edin;
- mürəkkəb tərkibli qarışıq olduğunu nəzərə alaraq, dəriyə və ya gözə düşərsə dərhal su ilə yuyun;
- istifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın;
- yuxarıdakı göstəricilər +23$^0$C±2$^0$C temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

### Zəmanət və texniki dəstək
- texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
- “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
- şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
- şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
- texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!